# MÜASİR ŞƏRAİTDƏ MÜƏLLİF HÜQUQUNUN QORUNMASI NƏŞRİYYAT İŞİNİN PRİORİTETLƏRİNDƏN BİRİ KİMİ

**ŞƏHLA TAHİRQIZI**
***BDU, filologiya üzrə fəlsəfə doktoru, dosent***

*Məqalədə müəlliflik hüququnun mahiyyəti, şərikli müəlliflik, müəllifin şəxsi və əmlak hüquqları, əmlakı kollektiv əsasda idarə edən təşkilatlar, nəşriyyat və müəlliflərin hüquqları, Müəllif Hüquqları Agentliyinin fəaliyyəti və vəzifələri məsələləri araşdırılmışdır.*

***Açar sözlər:*** *müəllif hüququ, əmlakı kollektiv əsasda idarə edən təşkilatlar, Müəllif Hüquqları Agentliyi.*

Bütün cəmiyyətlərin inkişaf göstəricilərindən biri də həmin cəmiyyətlərdə elm və mədəniyyətin səviyyəsinin yüksəldilməsi, bu isə dövlət səviyyəsində qayğı və diqqətin gücləndirilməsi, nəşriyyat işinin keyfiyyətinin artırılmasıdır. Müasir qloballaşma, demokratikləşmə, bazar iqtisadiyyatı prosesləri müstəqillik qazanmış postsovet ölkələrində, o cümlədən Azərbaycan Respublikasında bu sahədə yeniliklərə, dəyişikliklərə səbəb oldu. Ölkədə bir çox mülkiyyət formaları yarandı ki, bunların içərisində əqli mülkiyyət əsas yer tutur.

Hazırda Azərbaycanda intellektual, əqli mülkiyyətin, müəlliflik hüququnun qorunması sahəsində hüquqi baza formalaşmış, ölkəmiz bununla bağlı olan beynəlxalq konvensiyalara qoşulmuşdur: "Nəşriyyat işinin mühüm problemlərindən olan müəlliflik hüququ "təyinatından, dəyərindən və məzmunundan, habelə ifadə formasından və üsulundan asılı olmayaraq yaradıcılıq fəaliyyətinin nəticəsi olan həm açıqlanmış, həm də açıqlanmamış, obyektiv formada mövcul olan elm, ədəbiyyat və incəsənət əsərlərinə şamil edilir" (5, 87).

Əsərin yaradıcısı olan fiziki şəxsin – müəllifin hüquqları qanunvericiliklə qorunur. Bunun nəşriyyat işində müstəsna əhəmiyyəti vardır. Şübhəsiz ki, əsər müəllifin yaradıcılıq fəaliyyətinin məhsuludur. "Yaradıcılıq mahiyyəti etibarilə yeni mədəni və maddi dəyərlərin yaradılması prosesidir" (1, 37).

Rusiya tədqiqatçıları Y.L.Qavrilov və V.İ.Serebrovski yaradıcılığa daha dəqiq tərif verməyə çalışmışlar: "Yaradıcılıq öz unikallığı, təkraredilməzliyi, orijinallığı ilə fərqlənən və keyfiyyətcə yeni olan insan fəaliyyətidir" (9, 83; 12, 43).

Müəlliflərin yaradıcılıq məhsulları olan əsərlər təyinatından, aktuallığı və qeyri-aktuallığından, məsuliyyətlərindən asılı olmayaraq hüquqi cəhətdən qorunur. Müəllifin uğursuz yaradıcılıq məhsulu olan, hətta ictimai cəhətdən faydasız əsəri belə müəlliflik hüququ ilə mühafizə olunur.

Müəlliflik hüququnun obyektinə gəldikdə, bu hüququn şamil edildiyi açıqlanmış və açıqlanmamış əsərlər yazılı, şifahi, səs, videoyazı, təsviri, həcmli-fəzavi və digər obyektiv formalarda mövcud olur.

Obyektiv forma probleminə iki meyardan yanaşılır: birincisi, əsərin təkrar nümayiş etdirilməsi, surətinin alınması və ikincisi, insan tərəfindən qavranılması meyarı.

Müəllif hüquqları ilə qorunmayan obyektlər – rəsmi sənədlər, dövlət rəmzləri və nişanları, xalq yaradıcılığı əsərləri, informasiya xarakterli məlumatlar.

Müəlliflik hüququ obyektlərinin aşağıdakı növləri mövcuddur: ədəbi, dram, xoreoqrafik, mətnli və mətnsiz, audiovizual, heykəltəraşlıq, rəngkarlıq, qrafika, dizayn, arxitektura, fotoqrafiya əsərləri, törəmə əsərlər və s.

Müəllifin vətəndaşlığı əsərin hüquqi qorunma imkanlarının yaranmasına təsir edir. Əsərinin nəşr yerindən asılı olmayaraq Azərbaycan vətəndaşına, həmçinin Azərbaycan Respublikası ilə birlikdə beynəlxalq müqavilələrə və konvensiyalara qoşulmuş dövlətlərin vətəndaşlarının əsərlərinə də respublikada müəlliflik hüququ verilir.

"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununda şərikli müəlliflik hüququ da öz əksini tapır (maddə 9): "İki və ya daha çox şəxsin əməyi ilə yaradılan əsərə müəlliflik hüququ (şərikli müəlliflik) həmin əsərin, ayrılmaz, bütöv və ya müstəqil əhəmiyyətə malik olan ayrı-ayrı hissələrdən ibarət olmasından asılı olmayaraq birlikdə şərik müəlliflərə məxsusdur" (5,90). Şərikli müəlliflik müəlliflik hüququnun subyekti hesab olunur. Şərikli müəlliflərin qarşılıqlı münasibətlərinə tam, bütöv əsərə görə və müəlliflərin müstəqil şəkildə işlədiyi hissələrə görə yanaşılır. Qanuna görə, şərik müəlliflər aralarındakı münasibətləri öz razılıqları ilə müəyyən edirlər.

Həmmüəlliflər arasındakı konkret münasibətlər mürəkkəb struktura malikdir. Şərik müəlliflər əsərin müəyyən hissələrini birlikdə, yaxud hər biri müstəqil şəkildə yaza bilər, biri digərinin yazdıqlarını redaktə edə bilər və s. Buna görə də həmmüəlliflər bütünlükdə əsərin və ya onunla bağlı olan hissələrin istifadəsi haqqında əvvəlcədən rəsmi qaydada təsdiq edilmiş müqavilə bağlamalıdırlar.

Müqavilədən söz düşmüşkən nəşriyyat-müəllif münasibətlərinin tənzimləyicisi olan müəllif müqavilələrindən danışmaq yerinə düşərdi. Məlum olduğu kimi, müəllif müqavilələri "Müəlliflik hüquqları və əlaqəli hüquqlar





haqqında" Qanunun 30-31-ci maddələrini əhatə edir və bu müqavilələr mülki-hüquqi müqavilələrin xüsusi növü kimi aşağıdakı qruplara bölünür:

- əsərlərin yaradılması və istifadə edilməsi üzrə;
- sifariş üzrə;
- hazır əsər üzrə (6, s. 81).

Müəllif müqavilələrinin başqa bir təsnifatı üzrə isə bu müqavilələr müstəsna hüquqların verilməsi haqqında və qeyri-müstəsna hüquqların verilməsi haqqında müqavilələrə bölünürlər.

Müəllif müqaviləsinin əsas müddəalarından biri də bdu müqavilənin müddətidir. Tərəflər bu hüququn qüvvədə qalma müddətini sərbəst şəkildə müəyyənləşdirə bilərlər.

"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun 31-ci maddəsinin 1-ci bəndində göstərilir ki, müəllif müqaviləsində istifadənin müddəti haqqında şərt olmadıqda həmin müqavilə bağlandığı tarixdən 5 il keçəndən sonra müəllif tərəfindən pozula bilər. Bu halda istifadəçi müqavilənin pozulması haqqında 6 ay əvvəldən müəllif tərəfindən yazılı şəkildə xəbərdar edilməlidir (6, s. 84).

"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun XII fəslində (maddə 14, 15) müəllifin şəxsi (qeyri-əmlak) və əmlak (iqtisadi) hüquqları müəyyənləşdirilmişdir. Nəşriyyat işində bu hüquqların müəyyən edilməsi xüsusi əhəmiyyət kəsb edir. Belə ki, şəxsi hüquqlara görə, yaradıcı şəxs əsərin müəllifi kimi tanınmaq (müəlliflik hüququ), əsərdən öz adı ilə, təxəllüslə, yaxud adsız (anonim) istifadə etmək və ya istifadəyə icazə vermək (ad hüququ), əsərin mənasının dəyişilməsinə, təhrif olunmasına və ya hər hansı digər formada yenidən işlənməsinə, həmçinin müəllifin şərəf və ləyaqətinə xələl gətirən hər hansı başqa hərəkətlərə qarşı çıxmaq (şöhrətinə hörmət edilməsi hüququ), istifadədən götürmək də daxil olmaqla əsərini istənilən formada açıqlamaq və açıqlanmasına icazə vermək (açıqlamaq hüququ), istifadəçiyə dəyən zərəri və qazanacağı gəliri ödəmək şərtilə əsərin açıqlanması haqqında əvvəllər qəbul edilmiş qərardan imtina edə bilmək (imtina hüququ) (5, 91-92) hüquqlarına malikdir.

Əmlak (iqtisadi) hüquqlarına gəldikdə isə qanunlar müəllifin və ya əsərə müəlliflik hüququnun digər sahibinin "Əsərdən hər hansı formada və üsulla istifadə etməyə müstəsna hüququ"nu müəyyənləşdirilmişdir.

Əsərdən istifadəyə müstəsna hüquqlar aşağıdakıları həyata keçirməyi, həyata keçirilməsinə icazə verməyi, yaxud qadağan etməyi bildirir: 1. Əsərin surətini çıxarmaq (surətçıxarma hüququ). 2. Əsərin nüsxələrini hər hansı üsulla yaymaq, satmaq, kirayəyə vermək və s. (yaymaq hüququ). 3. Müəllifin və ya əsərə müstəsna müəlliflik hüquqları sahibinin razılığı əsasında nəşr və ya istehsal edilmiş nüsxələr də daxil olmaqla əsərin nüsxələrini yaymaq məqsədi ilə idxal etmək (idxal hüququ). 4. Əsəri kütləvi nümayiş etdirmək

(kütləvi nümayiş hüququ)... 5. Əsəri tərcümə etmək (tərcümə hüququ) (5, 94-95.

Bütün bunlar müəllif hüququnun qorunması əsasında tənzimlənməlidir.

Müəlliflik hüququ və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar müəlliflik hüququnun xüsusi mülkiyyətidir. Qanunda göstərilir ki, müəlliflərin əmlak hüquqlarının təmin olunması məsqədilə "İctimai birliklər haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq müəlliflərin əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar yaradıla bilər.

Qərb ölkələrində müəlliflərin əmlak hüququnu kollektiv idarə edən təşkilatlar mövcuddur. Fransada bu təşkilat SASEM, Almaniyada YEMA adlanır. Rusiyada Rusiya Müəlliflik Cəmiyyəti və digər təşkilatlar fəaliyyət göstərir. Belə təşkilatların kommersiya ilə məşğul olması qadağan olunmuşdur. Həmin təşkilatların gəlirləri qoruduqları əsərlərin istifadəsindən əldə olunur.

Bu tip təşkilatların müəlliflərlə qarşılıqlı münasibətləri xüsusi xarakter daşıyır. Əvvəla, müəlliflərin həmin təşkilatlara öz müəlliflik hüquqlarını verməsi müəllif müqavilələri rejiminin təsiri altına düşmür. Müəllif müqaviləsi əsasında müəlliflik hüququnun verilməsi hazırda çox məhdud xarakter daşıyır. Buna görə də adı çəkilən təşkilatlar həmin məhdudiyyətləri nəzərə almalıdırlar. Digər tərəfdən, müəlliflərlə həmin təşkilatların müqavilələri kütləvi xarakter daşıması ilə diqqəti cəlb edir. Belə ki, əgər təşkilatların nizamnamələrində müəlliflik hüququnu idarə etmək vəzifəsi vardırsa, müəlliflərlə müqavilə bağlanmasına etiraz edilə bilməz. Eyni zamanda təşkilatla müəllif arasındakı müqaviləni əlaqələndirmə müqaviləsi kimi səciyyələndirmək olar. Onu da qeyd etmək lazımdır ki, əmlak hüququnu kollektiv idarə edən təşkilatla müəllif arasındakı müqavilə o qədər də təcrübi xarakter kəsb etmir. Ona görə ki, istifadəçiyə lisenziya istənilən halda verilə bilər.

Nəşriyyat işində müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində dövlət siyasəti və idarəçiliyi əsas və həlledici rol oynayır.

Azərbaycan dövləti: "elm, ədəbiyyat və incəsənət əsərlərinin yaradılması, xalqın mənəvi dəyərlərinin artırılması sahəsində fəaliyyətin həvəsləndirilməsini, mütərəqqi beynəlxalq təcrübəyə uyğun olaraq müəlliflik hüquqlarını müəyyən edən və qoruyan qanunvericilik bazasının yaradılmasını, müəlliflik hüquqları və əlaqəli hüquqlar sahəsində dövlət idarəçiliyinin təşkilini, beynəlxalq əlaqələrin inkişaf etdirilməsi yolu ilə müəlliflərin digər dövlətlərin ərazilərində hüquqlarının qorunmasını" təmin edir (5, 112).

Müəlliflik hüququ sahəsində fəaliyyət göstərən xüsusi dövlət orqanı Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyidir. Azərbaycan





Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005-ci il 30 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi haqqında" Əsasnamədə göstərilir ki, Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi "müəlliflik hüququ, əlaqəli hüquqlar, Azərbaycan folkloru nümunələrinə, inteqral sxem topologiyalarına və məlumat toplularına əqli mülkiyyət hüquqları sahəsində dövlət siyasətini həyata keçirən, normativ – hüquqi tənzimləməni, əqli mülkiyyət sahəsinin inkişafını təmin edən, bu sahədə fəaliyyəti əlaqələndirən mərkəzi icra hakimiyyəti orqanıdır" (2, 120).

"Nəşriyyat işi haqqında" 30 may 2000-ci il tarixli Azərbaycan Respublikası Qanunu da müəlliflik hüququ sahəsində uğurlu addımlardan biridir. Qanunda göstərilir ki, "nəşriyyat əsas fəaliyyət sahəsi müəllifə sifariş verməklə və ya müəllifin (müəlliflik hüququ sahibinin) sifarişi ilə nəşriyyat məhsullarının hazırlanması, istehsalı və yayımından ibarət olan ixtisaslaşmış mədəniyyət müəssisəsidir" (6, 142).

Müəlliflər və həmmüəlliflər nəşriyyata ictimai-siyasi, tədris, elmi, tətbiqi və texniki səciyyəli əsərləri təqdim edə bilərlər.

Nəşriyyatın hüquq və vəzifələri arasında "Müəlliflik hüququna, dövlət standartlarının və beynəlxalq standartların tələblərinə, nəşriyyat işini tənzimləyən normativ hüquqi aktlara əməl etmək" əsas yer tutur.

Son vaxtlar Azərbaycanda əqli mülkiyyət hüquqlarının qorunması sahəsində aparılan işlərin intensivliyi və səmərəsi daha da artmış, geniş beynəlxalq əlaqələr qurulmuşdur. Bu da dövlətin daimi dəstəyi və bu sahədə icra hakimiyyəti orqanı olan Müəllif Hüquqları Agentliyinin məqsədyönlü və ardıcıl fəaliyyəti sayəsində mümkün olmuşdur.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası 1995-ci ildən Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) üzvü kimi onun tədbirlərində fəal iştirak edir. Bununla yanaşı, Azərbaycan ÜƏMT-nin inzibati idarəçiliyində olan müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində konvensiya və müqavilələrə, o cümlədən: "Ədəbi və bədii əsərlərin qorunması haqqında" Bern Konvensiyasına (1999); "ÜƏMT-nin Fonoqram istehsalçılarının mənafelərinin onların fonoqramlarının qanunsuz təkrar istehsalından qorunması haqqında" Konvensiyasına (2001); "İfaçıların, fonoqram istehsalçılarının və yayım təşkilatlarının verilişləri haqqında" Roma Konvensiyasına (2005); "Ümumdünya Əqli Mülkiyyət Təşkilatının müəlliflik hüququna dair Müqaviləsi"nə (2005) və "Ümumdünya Əqli Mülkiyyət Təşkilatının İfalar və fonoqramalara dair Müqaviləsi"nə (2005) qoşulmuşdur. Azərbaycan Respublikası həmçinin YUNESKO-nun "Müəllif hüququ haqqında Ümumdünya Konvensiyası"na (1997) qoşularaq, bu çərçivədə əməkdaşlığı davam etdirir.

Sadalanan beynəlxalq Sazişlərə qoşulmaq barədə qəbul edilmiş qanun milli qanunvericiliyimizin tərkib hissəsi kimi çıxış edərək, onu daha da zənginləşdirmişdir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, son illər ölkəmizdə qeyri-maddi mədəni irsin qorunmasına diqqət xeyli artırılmışdır. Bu sahədə əldə edilmiş uğurlarda ölkəmizin birinci xanımı Mehriban xanım Əliyevanın xidmətləri böyükdür. Elə 2009-cu ildə Azərbaycanın aşıq sənətinin YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi də onun xidmətləri sayəsində mümkün olmuşdur.

Bütün bunlar ölkəmizdə müəllif hüquqlarının qorunması sahəsində görülən işlərin səmərəsindən xəbər verir.

## ƏDƏBİYYAT

1. Azərbaycan dilinin izahlı lüğəti. Bakı: Elm, 1979, I cild, 220 s.
2.Azərbaycan Respublikasının Müəllif Hüquqları haqqında Əsasnamə//Ş.Tahirqızı, Müəllif hüququ. Bakı: Nurlan, s. 120
3. İmanov K., İsayev N. Azərbaycanda müəlliflik hüququ qanunvericiliyində şərikli müəlliflik /"Musiqi dünyası ; 3-4, 2000, s. 35-47
4. İsayev N. Müəllif hüquqlarının obyektləri //"Hüquqi dövlət və qanun, 2005, № 8-9, s. 41
5. "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" 1996-cı il 8 oktyabr tarixli Azərbaycan Respublikasının Qanunu//Ş.Tahirqızı, Müəllif hüququ, Bakı Nurlan, 2008, əlavə 1, s. 82
6. Nəşriyyat işi. Bakı, "Yeni Nəsil", NPM, 2001, 218 s.
7. Nəşriyyat işi haqqında Azərbaycan Respublikası Qanunu II c.
8. Tahirqızı Ş. Müəlliflik hüququ, Bakı: Nurlan, s. 135-149
9. Авторское право и издатели в условиях рыночных экономики. Материалы всесоюзного семинара.Киев: Наука,1991, 241 с.
10. Гаврилов Е.Л. Советское авторское право. Основные положение и тендеции развития. Москва,1984, 190 s.
11. Иоанс В.Я. Критерий творчества в авторсоу права и судебной практики //Москва:Юридическая литература, 1983, с. 59-70
12. Калятин В.О. Интуллектальная собственность (Исключительная права)Учебник для вызов. Москва: изд: NDRMA, 2000, 480 с.
13. Серебровский В.И. Вопросы советского авторского права.Москва:Мысль, 1956, 176 с.





## ЗАЩИТА АВТОРСКИХ ПРАВ КАК ПРИОРИТЕТ ИЗДАТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТИ

ШАХЛА ТАХИРКЫЗЫ

***РЕЗЮМЕ***

*Статья рассматривает вопросы сути авторского права, соавторства, имущественные права автора и коллективные права в современном этапеи и участие издательских учиреждении в защите прав авторов.*

***Ключевые слова:*** *авторское право, издательское дело, приоритет, соавторства.*

## *PROTECTING OF THE AUTHOR RIGHTS AS PRIORITY OF THE PUBLISHING ACTIVITIES*

SH.TAHIRQIZI

***SUMMARY***

*In the article* investigated *co-author,* the author's labor rights, copyright agency's activities.

***Key words:*** *author's rights, Publishing work, Priority, co-author. In the article considered* author's rights, co-author in modern stage.